**Emil AĞAYEV**
*Azərbaycan Dövlət Rəssamlıq Akademiyası,*
*magistr*

# ALTAY HACIYEV YARADICILIĞINDA MULTİKULTURALİZM ƏNƏNƏLƏRİ

# ТРАДИЦИИ МУЛЬТИКУЛЬТУРАЛИЗМА В ТВОРЧЕСТВЕ АЛТАЯ ГАДЖИЕВА

# TRADITIONS OF MULTICULTURALISM IN CREATIVITY OF ALTAY HAJIYEV

**Açar sözlər:** Altay Hacıyev, multikulturalizm, rəng, Bakı
**Ключевые слова:** Алтай Гаджиев, мультикультурализм, цвет, Баку
**Keywords:** Altay Hajiyev, multiculturalism, color, Baku

**Xülasə:** Azərbaycan təsviri incəsənətində mühüm yer tutan sənətkarlardan biri də Altay Hacıyevdir. Rəssamın yaradıcılığında milli və avropa ənənələrinin qarşılıqlı əlaqəsini görə bilərik.

**Резюме:** Одним из самых выдающихся художников азербайджанского изобразительного искусства является Алтай Гаджиев. Мы видим взаимодействие национальных и европейских традиций в творчестве художника.

**Abstract:** One of the most prominent artists in Azerbaijan's fine art is Altay Hajiyev. We can see the interaction of national and European traditions in the artist's creativity

Azərbaycan təsviri incəsənət tarixinə nəzər yetirsək daima qərb və şərq ənənələrinin sintezini görə bilərik. Rəssamlarımızın xarici ölkələrə etdiyi ezamiyyətlər zamanı, yaratdıqları silsilə əsərlərdə texnika, üsul, ənənə və müasirlik kompozisiyaların bitkinliyini tamamlayır. Miniatür ənənələrimizin və Avropada olan müxtəlif təsviri incəsənət cərəyanlarının bir-birinə uyğunlaşdırılaraq həll

edilməsini tez-tez görə bilərik. V.Səmədova "Stokholm", M.Abdullayev "Hindistan", N.Əbdürrəhmanov "Venesiya" və başqa sənətkarlarımızın xarici ölkələrə həsr etdikləri silsilə tablolarda veduta janrının xüsusi metodlarını görə bilərik. Təkcə bu silsilə əsərlərlə kifayətlənməyən rəssamlarımız yaradıcılıqlarında portret janrınada multikultural baxışlarıyla seçilirlər. Öz yaradıcılığında miniatüra və Avropa ənənələrinin vəhdətini yaradaraq bir-birindən maraqlı tablolar yaradan sənətkarlarımızdan biri də xalq rəssamı Altay Hacıyevdir. (1931-2019). Rəssam məşhur qrafika ustası Əmir Hacıyevin ailəsində dünyaya göz açmışdır. Qarabağ mühiti və onun atası, xalası teatr rəssamı Bədurə Əfqanlı kimi sənətkarlar Altay Hacıyev kimi bir rəssamın yetişməsində mühüm rol oynadı. 2001-ci ildə keçirilən "Xalqımızın ulduzları " silsiləsini xüsusilə qeyd etməliyik. Bu silsiləyə daxil olan maraqlı əsərlərdən biri "Tomris" obrazıdır. Qeyd etmək lazımdır ki, Avropa rəssamları Rubens, Rembrandtın əsərlərində bəzi tədqiqatçılar Tomrisi Məryəm ana kimi təqdim edirlər. Altay Hacıyevin yaratdığı birinci kompozisiyanın (Şəkil 1) mərkəzində öz geyimi, daxili aləmi ilə seçilən qadın, qəhrəman obrazı yaradılmışdı, sanki həmin tarixi hadisə tamaşaçının gözü qarşısında bir daha canlandırılır. Kompozisiyadakı dinamika, obrazların daxili psixoloji aləmi rəssam tərəfindən açıqlanmışdı.Əsər çoxfiqurlu olmaqla yanaşı, Avropa rəssamlarının təsviri sənət metodlarına bənzəyir. Digər bir əsərdə isə (Şəkil 2) Tomris incə, zərif, bir xanım kimi təsvir edilmişdi. At, dəbilqə, qılıncın simvolik olaraq əks etdirilməsi, qadın qəhrəmanın zərifliyi ilə ziddiyyət təşkil edir. Rəssam burada Qərb və Şərq memarlığını xüsusilə vurğulamışdı. Atəşgah məbədi və yunan memarlıq nümunəsi fon qismində bu əsəri tamamlayır. Hər iki obraz ikonoqrafik təhlil metodunun nəzəri və praktik xüsusiyyətindən sənətşünaslıq üçün əsas təhlil mövzusudur. "Xalqımızın ulduzları "silsiləsindən "Tuti Bikə", "Ağa Bəyim Ağa", "Aşıq Pəri" və b. əsərləri diqqətə layiqdi.



*Şəkil 1. Tomris*
*(kətan, yağlı boya, 2001)*



*Şəkil 2. Tomris*
*(karton, sulu boya)*

Altay Hacıyev yaradıcılığında Natəvana həsr etdiyi silsilə əsərlərdə mühüm yer tutur. "Natəvan Düma ilə" (şəkil 3) adlı tablosunda şərq və qərbin əsas qəhrəmanının şahmat oynaması səhnəsi canlandırılmışdı.



*Şəkil 3. "Natəvan Düma ilə" (kətan, sulu boya, pastel, 2000)*

Rəssam burada geyim mədəniyyətindən, məkan və təsviri incəsənət metodlarından ustalıqla istifadə etmişdi. İşıq-kölgə isə qəhrəmanların üzərinə əks etdirələrək, sanki təzad, blik (ləkə) rolunu oynayır. Daxili psixoloji aləm və mimikaların verilməsi bu əsəri tamaşaçının gözü qarşısında bir daha məşhur mövzunun multikultural dəyərinin başa düşülməsi üçün asanlaşdırır.

Rəssamın yaradıcılığında məşhur şairlərin əsərlərinə çəkilmiş kompozisiyalarda mühüm yer tutur. Nizami Gəncəvinin 7 gözəl poemasına həsr etdiyi "Bəhram Gurun 7 gözəl ilə" multikultural mövzusuna özünəməxsus yanaşmasını xüsusilə qeyd etməliyik. Silsiləyə daxil olan maraqlı tablolardan biri olan "Bəhram Gur Fitnə ilə ovda" (Şəkil 4) əsərində milli və qərb təsviri sənət metodlarından ustalıqla istifadə edilmişdi. Mənzərə önündə təsvir edilən ov səhnəsi miniatürlərimiz üçün ənənəvi süjetdir. Soyuq və isti rənglərin vəhdəti, məkan və prespektivanın qurulması kompozisiyada bitkinlik yaradır. Ov etmə səhnəsində kişi və qadın bərabərliyi, dinamika, rəngin ritmik olaraq təkrarlanmasını xüsusilə vurğulamaq lazımdır. Nizaminin multikultural məzmunlu mövzusunu öz kətanına köçürən rəssam, rənglərin axıcılığını, ceyranın ov edilməsini, bütün bu təsvirləri nəzərdən yetirsək Firdovsinin məşhur "Şəhnaməsi"ndəki miniatürlərlə səsləşdiyini görə bilərik.



*Şəkil 4. "Bəhram Gur Fitnə ilə ovda" (Kətan, yağlı boya, 2002)*

Altay Hacıyevin yaradıcılığında Bakıya həsr etdiyi tolerant baxışlı kompozisyalarıda yaradıcılığında mühüm yer tutur. Qədim və müasir Bakının memarlığının monumental şəkildə əks etdirilməsi tamaşanın diqqətini cəlb edir. Rəssamın "Bakılı qızlar" (Şəkil 5) kompozisiyasında Bakının simvolu sayılan Qız qalasının qarşısında, sanki qırmızı parçalardan qurulmuş üç gənc qız təsvir edilmişdi. Dairəvi formada "ağırlaşdırma" metodundan bu əsərdə istifadə edilmişdi. Azərbaycanlı qız öz başındakı örtüyüylə, utancaqlığı və əsl şərq xanımına məxsus olan baxışlarıyla seçilir. Sənətkar burada rus və erməni qızını əks etdirərək doğma Bakımızın tolerant şəhər olduğunu bir daha vurğulayır.



*Şəkil 5. "Bakılı qızlar" (kətan, yağlı boya, 2005)*

Altay Hacıyev yaradıcılığı milli və Avropa təsviri sənət ənələrinin multikultural sintezi kimi bir irs kimi qiymətləndirilərək gələcək nəsillərə ötürülməlidir.

## ƏDƏBİYYAT


1. Наджафов М. Алтай Гаджиев, Баку, Ишыг, 1974
2. Керимова С. Творческий путь Эмира Гаджиева, Elmi axtarışlar, XXIV, AMEA, Folklor İnstitutu, Bakı, Səda-2006, s.162-166. Adiloğlu Nəş., Bakı, 2001, 179 s
3. Əliyev Z. Azərbaycanın Xalq Rəssamı Altay Hacıyev, Bakı, 2011, 143 s.